Xalq qəzeti.- 2025.- 2 oktyabr, №211.- S.12.



*Vətən müharibəsi qəhrəmanları*

# İntiqamın Vətən qisası

**Söhbət Masallıda anadan olanda İntiqam adı verilən, məlum Aprel döyüşlərində şəhid olmuş qardaşı Nurlanın və digər hərbçilərin qisasını İkinci Qarabağ müharibəsində alan igidlər-igidi soydaşımızdan gedir. Bu gün onunla - Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərli ilə bütün el-oba, bütün xalq fəxr edir.**



Qeyd edək ki, İntiqamla Nurlan 2016-cı ildə Lələtəpə uğrunda döyüşlərdə birgə iştirak ediblər. 20 yaşlı Nurlan o zaman igidliklə həlak olub və onun nəşini döyüş meydanından İntiqam özü çiynində çıxarıb. Nurlan ölümündən sonra III dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə” medalı ilə təltif edilib. Onu itirdiyi üçün yanıb-yaxılan böyük qardaş İntiqam, nəhayət, 2020-ci ildə başlanan savaşda düşmənlərə öz sözünü sonadək deyə bilib və Xüsusi Təyinatlıların kəşfiyyatçı giziri kimi misilsiz hünər göstərərək əbədiyyətə qovuşub.

İki şəhid anası Ziba xanım İntiqamla son görüşünü bütün təfərrüatı ilə xatırlayır: “O axşam bizimlə halallaşmaq üçün kəndə gəldi. Evdə təkcə mənə müharibənin başlayacağını söylədi və sonra da əlavə etdi ki, qardaşımın qisasını almasam, rahat olmaram. Həmin gün gecə saat 1-ə qədər danışdıq. Nurlanın xatirəsinə bir guşə düzəltmişik, İntiqam səhər saat 5-ə qədər o otaqdan çıxmadı. Sübh tezdən namaz qıldı və hava açılmamış getdi. Halallıq verdim, ehtiyatlı ol, ümidimiz sənsən, – dedim balama. Axırıncı dəfə oktyabrın 18-i danışdıq. Dedim ki, anan qurban, kaş, quş olub uçaydım yanına, düşmənin birini sən vuranda, birini də mən vuraydım. Dedi ki, ana, ehtiyac yoxdur, burada elə igid oğullar var ki”...

İntiqam 2020-ci il noyabrın 8-nə qədər şərəfli döyüş yolu keçib. Xocavənddə, Kəlbəcərdə məğrur qartal kimi qıy vuranlardan, düşmən üstünə göz qırpmadan şığıyanlardan olub. Şuşada əlbəyaxa döyüşlərə və dağa dırmanma əməliyyatınadək iştirak edib. Komandiri ona geri qayıtmağı məsləhət görüb. Lakin İntiqam razı olmayıb. Deyib ki, öldü var, döndü yoxdur. Mən qarşıma qisas almağı məqsəd qoymuşam. Belə bir vaxtda geri çəkilsəm, anam məni bağışlamaz”. Və o, Şuşanın alındığı gün orada həlak olub.

Bu günlərdə Masallıya getmişdim. İcra hakimiyyəti aparatının qarşısındakı Zəfər meydanında “Dəmir yumruq” abidəsini, şəhidlərin şəkilləri vurulmuş lövhələri ziyarət elədim. Ön lövhənin sol tərəfindəki siyahıda Nurlan və İntiqamın adlarına rast gəldim. Vətən Müharibəsi Qəhrəmanı olduğuna görə, digər 4 eloğlusu ilə bərabər İntiqamın əzəmətli büstü də orada qoyulub. Bir neçə gün əvvəl – Anım günündə büstlərin önünə qoyulmuş güllərin heç biri solmamışdı. Həmişə təzə-tər olan xatirələri kimi. Düşündüm ki, şəhidlər ölmədikləri kimi, onların adına dərilən güllər də solmaq bilmir.

İntiqam Əsgərlinin təltif sənədində də yazıldığı kimi, o, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlər göstərib və qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman misilsiz qəhrəmanlıq nümunəsi ilə fərqlənib.

...İndi Əsgərlilər ailəsində yenə də İntiqam deyə çağrılan bir igid böyüyür. Qəhrəman ata həlak olandan bir neçə ay sonra Nur adlı qız balasının qardaşı doğulub və ona atasının adını qoyublar.

***Ə.DOSTƏLİ***
***XQ***